**Bayraq da çörək kimi müqəddəsdir, öpülüb göz üstünə qoyulur. Üçrəngli Azərbaycan bayrağının üzərində şəhid qanı var, ulduzunu, ayını göydə mələklər öpər, hər rəngində bir qazi, bir şəhid bitər. Qürurun, şərəfin, qəhrəmanlığın, vətən haqqının simvolu, sən sancılan ucalıq min-min ürəkdən keçər, yarı torpaq, yarı göy, yarı alov bayrağım. Səni vəsf etməyə sözün qüdrəti çatmır, tarixdən qədimsən, zamandan qoca, hilalına vurğun olanların, od yurdunun bayrağı, zəfər göylərinə ucaldın, əzəmətlə dalğalandın, bir millətin kimliyini, mənliyini yaşatdın. Səni ürəyinin başında gəzdirən oğulların qəhrəmanlığına şahid oldun. 1992-ci ildə bir həftə Xramort kəndindəki alban məbədində səngər quraraq erməni silahlı dəstələri ilə döyüşən Natiq Qasımovun gülləsi tükənəndə, mühasirə halqası daralanda son ümid yeri üçrəngli, ay, ulduzlu bayrağımız oldu. Qarşıda onu erməni işğalçıları, amansız ölüm gözləsə də, müqəddəs bayrağımızı əlindən yerə qoymadı, bərk-bərk ondan yapışaraq düşmənin üzərinə getdi. Qəhrəman əsgərimizlə birlikdə bayrağımız da döyüşdü, bu düşmənlərin bağrına ox kimi sancıldı, əfsanəvi hünər onların kirli varlığına qorxu saldı.**

# Qələbə bayrağı, müstəqillik rəmzi

Üçrəngli bayrağımız müstəqillik tariximizlə birgə addımlayıb, imperiya onu qadağan edəndə bu bayrağı evinin, qəlbinin ən müqəddəs yerində qoruyub saxlayan xalqın böyüklüyü, əqidəsi və inamı onu yaşatdı. Türkün Bayraq sevgisi bütün duyğulardan ucadır.

Ən yaxın tariximizdə qanı və canı ilə imperiya ordusunun qarşısına əliyalın çıxan xalq azadlığını və müstəqilliyini qazandı. Lakin bu sevinc uzun çəkmədi, xarici və daxili qüvvələr müstəqilliyimizi elə beşiyindəcə boğmağa cəhd etdilər, millətimiz qan tökərək qazandığı hürriyyəti itirmək anında öz böyük oğluna, dahi şəxsiyyət Heydər Əliyevə müraciət etdi. Vəziyyət çox ağır idi, düşmən qüvvələr fəallaşmışdılar, xaricdən onlara havadarlıq edənlər var idi. 1993-1994-cü illərdə Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və bütün təqibləri, təhdidləri, təzyiqləri, dövlət çevrilişinə cəhdləri mərdliklə dəf etdi. Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Bundan əvvəl isə ozamankı iqtidar, ondan hakimiyyət bölgüsü gözləyən müxalif qüvvələr Heydər Əliyevin Bakıda qalmasına hər cür maneə törətdilər və ulu öndər doğma diyarı olan Naxçıvana getməli oldu. Dahi lider iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə görüşlər keçirdi, azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR Ali sovetlərinə deputat seçildi. Dahi dövlət xadimi müdrik, uzaqgörən siyasəti ilə xalqı azadlıq mübarizəsinə istiqamətləndirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin onun sədrliyi ilə keçirilən sessiyası muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında məsələ qaldırılması haqqında tarixi qərar qəbul etdi. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxdı və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi. Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də keçirilən iclasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət bayrağı müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrildi.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanun ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirildi. Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Böyük dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Dövlət Bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olundu, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında normativ aktlar qəbul edildi. Ulu öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında üçrəngli bayrağımız dövlət rəmzi kimi təsbit edildi. Burada göstərilir ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Bayrağımızdakı mavi rəng Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng İslam sivilizasiyasına mənsubluğunu ifadə edir.



Ümummilli lider Heydər Əliyev deyib: "Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun". Görkəmli dövlət xadiminin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Ölkəmizin bütün bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılıb. Belə bayraq meydanlarından biri də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasındadır. 2009-cu il noyabrın 17-də Prezident İlham Əliyev hər il noyabrın 9-nun Azərbaycanda Dövlət Bayrağı günü kimi qeyd olunması haqqında Sərəncam imzalayıb. Sənəddə deyilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan indiki dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. Həmin fakt nəzərə alınaraq noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü elan olunub. Bayraq haqqında danışan Prezident İlham Əliyev deyib: "1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var... Ancaq, eyni zamanda, mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi".




2020-ci il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev xalqımıza müraciət edəndə Ermənistana və onun havadarlarına açıq və sərt şəkildə bildirdi ki, Azərbaycan müharibədə qalib gəldi. Bu müharibə labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi biz sülh haqqında danışırıq. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır. Azərbaycan Silahlı Qüvvələrinin hərbi üstünlüyünü, peşəkarlığını, döyüş ruhunu, Vətən məhəbbətini, bayraq sevgisini Vətən müharibəsində düşmənlər də gördü, dostlar da.



Böyük güclərin diktəsi ilə Azərbaycan ərazisində heç bir mənəvi, siyasi və hüquqi əsası olmadan yaradılan qondarma rejim böyük Qələbə nəticəsində tarixin zibilliyinə atıldı. Bu gün böyük siyasi iradənin, milli birliyin, güclü ordunun nəticəsində Azərbaycan bayrağı Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə dalğalanır.

Bakıda keçirilmiş Hərbi paradda Prezident İlham Əliyev çıxış edərək demişdir: "Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan Bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik". Bu gün üçrəngli bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Qürurverici haldır ki, illər öncə Prezidentimizin dediyi "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" ifadələri bu gün artıq reallığa çevrilib. 44 günlük Vətən müharibəsində rəşadətli Ordumuzun peşəkarlığı, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli iradəsi sayəsində tarixi Qələbə qazandıq. İndi əzəmətli Azərbaycan bayrağı əzəli, qədim torpaqlarımız olan, yenidən dirçəldilən, qurulan Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Hadrutda, Suqovuşanda, Ağdamda, Kəlbəcərdə, Laçında, Şuşada, digər kənd və qəsəbələrimizdə, xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində dalğalanır. Gün o gün olsun ki, üçrəngli bayrağımız Turan üstə açılsın, Turan yoluna işıq salsın.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 5 fevral (№25).-